Azerbaijanian Journal of Economics and Social Studies

**Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı**
Sayı/Number 3, 2015
**www.azjess.com**

# DÖVLƏT ƏRZAQ EHTİYATLARININ FORMALAŞDIRILMASININ ƏSAS PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**Əliyev Sahib Bayram oğlu**
Az.ETKTİ və Tİ-nin
"Ərzaq təhlükəsizliyi" şöbəsinin
müdiri, i.ü.f.d.
**Əhmədov Famil Talverdi oğlu**
aparıcı elmi işçi, i.ü.f.d.

**Xülasə**

Respublikamızda ərzaq təhlükəsizliyinin təminatının tərkib hissəsi kimi dövlət ərzaq fondlarının yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Müəyyən olunmuşdur ki, dövlət ərzaq fondları yalnız bir məhsul- taxil üçün yaradılmışdır və onun çeşidinin artırılmasına ehtiyac vardır. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq, xüsusən də müharibə şəraitində olan bir ölkə üçün əsas ərzaq məhsullarından dövlət ehtiyat fondlarının yaradılması təklif olunmuşdur. Yaradılacaq ərzaq fondlarının ilkin təşkili üçün mövcud olan loqistik mərkəzlərdən, saxlama və soyuducu anbarlardan istifadə imkanları araşdırılmış və buna dair təkliflər verilmişdir. Məqalədə yeni yaradılacaq dövlət ərzaq fondlarının həcmi barədə fikirlər yer almışdır.

**Açar sözlər:** ərzaq ehtiyatları, ərzaq təhlükəsizliyi, taxıl fondu, ərzaq balansları, taxıl anbarları, loqistik mərkəzlər, ərzaq fondları.

İnkişaf etmiş ölkələrdə qlobal problem kimi enerji təhlükəsizliyinin təminatı qarşıda duran mühüm məsələlərdən birincisi hesab olunur. Dünya iqtisadiyatının əsas problemlərindən biri olan enerji təhlükəsizliyi qədər ərzaq təhlükəsizliyi də öz aktuallığını qorumaqdadır. Ərzaq təhlükəsizliyinin təminatı dövlətin birbaşa vəzifəsi olmaqla onun sosial siyasətinin əsasını təşkil edir. Respublikamızda da ölkə əhalisinin əsas ərzaq məhsulları ilə daxili mənbələr hesabına tam təmin olunması məsələsi aqrar siyasətimizin ana xəttini təşkil etməkdədir.

Bunun üçün dövlət ərzaq ehtiyatlarının yaradılması başlıca vəzifə kimi qarşıya qoyulur. Daxili bazarı tənzimləmək məqsədilə və dövlətin bazara nəzarətinin tam həyata keçirilməsi üçün bu çox vacibdir. Bazarın xarici təsirlərdən qorunması və bazarda süni qiymət artımına nəzarət üçün yaradılmış ehtiyatların ehtiyac yarandıqca bazara təklifi

məqsədəuyğun sayılır. Respublikamızda aqrar sahibkarlığın daim dövlət tərəfindən stimullaşdırıldığı şəraitdə ərzaq təminatı problemlərinə kompleks yanaşmaqla yerli istehsalın artırılması, yetərli ərzaq ehtiyatlarının yaradılması, müasir infrastruktur təminatının formalaşdırılması ilə bərabər intensiv məhsul istehsalı istiqamətində təsirli tədbirlərin görülməsi zərurəti də yaranır.

Ərzaq təminatını qismən və ya tam həll etmiş ölkələrdə "ərzaq təhlükəsizliyi" ilə yanaşı "təhlükəsiz ərzaq" probleminin həlli yolları axtarılmaqdadır. Gündəlik tələb olunan kalorini hansı ərzaqlar hesabına əldə etmək əsas məsələlərdən biridir. Qida rasionunun çeşidli olması, qəbul olunan qidanın yararlılığı vacib məsələlərdən biridir.

Aqrar sahibkarlığın inkişafı gəlirlərin ədalətli bölgüsü, iqtisadi münasibətlərin təkmilləşdirilməsi, aqrar sahədə kompleks təbdirlərin həyata keçirilməsinin elmi cəhətdən əsaslandırılmış istiqamətlərini müəyyən etməyi, nəinki özünü təminetməni həyata keçirməni, həmçinin ixracyönümlü məhsul istehsalını artırmaq üçün mövcüd potensial imkanlardan səmərəli istifadə edilməsi ərzaq ehtiyatlarının yaradılması problemini qabardır. Ölkənin müharibə şəraitində olması bu məsələnin əhəmiyyətini daha qabarıq şəkildə ortaya qoyur.

İdxalın daxili bazara təsirinin minimuma endirilməsi bir sıra məhsullar üzrə ərzaq fondlarının yaradılmasını zəruri edir ki, respublikamızda bu istiqamətdə bir sıra işlər görülmüşdür. Ərzaq təminatında iqtisadi sabitliyin qorunması məqsədilə dövlət taxıl fondu yaradılmışdır. Fikrimizcə daha geniş çeşiddə ərzaq məhsulları fondlarının yaradılması zərurəti vardır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, bu fondların yaradılması ərzaq təhlükəsizliyinin təminatı ilə yanaşı aqrar sahibkarların bazar problemlərinin həllinə də köməklik göstərir.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda göstərilir ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Ölkə əhalisinin etibarlı ərzaq təminatının formalaşdırılmasına təsir edən əsas amillərdən biri də ölkədə yetərli ərzaq ehtiyatlarının yaradılması ilə yanaşı rəqabətədavamlı istehsala nail olmaqdır. Bu baxımdan bazar münasibətləri şəraitində ölkə əhalisinin ərzaq təhlükəsizliyinin yetərli olaraq təmin edilməsi üçün dövlətin ərzaq ehtiyatlarının formalaşdırılmasının mümkün olan bütün səmərəli forma və istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

"2008-2015 - ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair" Dövlət Proqramı müasir aqrar siyasətimizin ana xəttini təşkil edir. Proqramın əsas məqsədi əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın rolunu maksimum həddə çatdırmaqdır. Mövcud olan problemlər etiraf edilməklə onların aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsi olduqca vacıbdir. Proqramda qeyd edildiyi kimi son illər iqtisadiyyatın bütün sahələrində olduğu kimi kənd təsərrüfatında da dinamik inkişaf təmin olunsada, bu inkişafın səviyyəsi qənaətbəxş deyildir. Belə ki, intensiv inkişafın əsas amili olaraq məhsuldarlıq səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsindən dəfələrlə aşağıdır. Qarşıya qoyulan əsas məsələ bu göstəricilərin potensial məhsuldarlıq səviyyəsinə çatdırılması və

bununla da aqrar siyasətin əsas məsələsi olan əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı üçün zəmin yaratmaqdır.

Əsas vəzifə əhalinin ərzaq məhsulları ilə təmin etmə məsələsi deyil, bu təminetmədə yerli istehsalın rolunun artırılmasıdır. Proqramda deyilir "Ərzaq təhlükəsizliyinin başlıca şərtlərindən biri dövlət ərzaq ehtiyatlarının təşkili və onların səmərəli idarə olunması, fövqəladə hallara yüksək səviyyəli hazırlığın təmin edilməsi, təbii fəlakətlərin nəticələrinin qısa zamanda aradan qaldırılmasından ibarətdir.

Dövlət ərzaq ehtiyatları əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə yaradılır.

Dövlət ərzaq ehtiyatları dövlət material ehtiyatlarının tərkib hissəsidir və aşağıdakı məqsədlər üçün istifadə edilir:

- xüsusi dövrlərdə Azərbaycan dövlətinin yeyinti məhsullarına olan ehtiyacını ödəmək;
- daxili ərzaq bazarında tələb və təklif arasında uyğunsuzluq yarandıqda iqtisadiyyatın sabitliyini təmin etmək məqsədilə yeyinti sənayesinə, iqtisadiyyatın digər sahələrinə, idarələrinə və təşkilatlarına köməklik göstərmək;
- ölkə əhalisinə, xarici dövlətlərə, ictimai və dini təşkilatlara humanitar yardım etmək;
- ərzaq böhranı, təbii fəlakət və fövqəladə hadisələr zamanı əhalini yeyinti məhsulları ilə təmin etmək. ("Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunu)

Dövlət ərzaq ehtiyatlarının, bir qayda olaraq, başqa məqsədlər üçün istifadəsinə yol verilmir. Müstəsna hallarda dövlət ərzaq ehtiyatlarının başqa məqsədlər üçün istifadəsi müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir.

Dövlət ərzaq ehtiyatlarının tədarükü üçün illik büdcə proqnozlarında müvafiq vəsait həcmi nəzərdə tutulur.

Dövlət ərzaq ehtiyatlarına ərzaq tədarükü müvafiq icra hakimiyyəti orqanları ilə istehsalçılar arasında bağlanmış müqavilələr əsasında həyata keçirilir.

Dövlət ərzaq ehtiyatları müvafiq icra hakimiyyəti orqanının sərəncamında olur.

Dövlət ərzaq ehtiyatlarının həcmi, nomenklaturası, formalaşması, saxlanması, istifadəsi və vaxtaşırı yeniləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ərzaq təhlükəsizliyi bütün dünya ölkələrində il ərzində tələbatın ehtiyatlar hesabına ödənildiyi günlərin sayı ilə ölçülür. FAO-nun hesablamalarına görə, ərzaqla təminatın minimum səviyyəsi iki ay ərzində tələbatın kifayət qədər ödənilməsinə və ya dünya ərzaq istehsalının 17%-nə bərabər dünya ərzaq ehtiyatı hesab olunur. Ötən əsrin 80-ci illərində dünya taxıl ehtiyatının səviyyəsi aşağı düşmüş, 90-cı illərdə 40 günə qədər azalmışdı. 1995-ci ildə taxıl ehtiyatları dünya ərzaq tələbatının 14%-nə qədər azalmışdı ki, bu da taxıl məhsullarına olan qiymətləri bir qədər qaldırmışdı.

Ümumiyyətlə, dünya əhalisinin ərzaq tələbatını ödəmək üçün kifayət qədər ərzaq istehsal olunur. Respublikamızda ərzaq təhlükəsizliyi konsepsiyası ərzaqla özünü tam təmin etmək deyildir. Bu konsepsiyaya görə, ölkə öz tələbatını ödəmək üçün kifayət qədər ərzaq istehsal etmək iqtidarında olmalı, əsasən yerli istehsal hesabına

tələbatın ödənilməsi təmin edilməlidir. İstehsal oluna bilməyən hissə isə dünya birjalarının yaxından izlənilməsi ilə tədarük oluna bilər.

Hazırda dövlət ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, Dövlət Taxıl Fondunun genişləndirilməsi və idarə olunmasının təkmilləşdirilməsi ilə bağlı müəyyən işlər aparılır. Bu sahədə müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, Dövlət Taxıl Fondunun genişləndirilməsi məqsədilə zəruri infrastrukturun yaradılması, o cümlədən tələbata uyğun yeni elevator və anbarların tikilməsi, zəruri hallarda taxıl bazarına əmtəə müdaxiləsi mexanizminin həyata keçirilməsi, əsas ərzaq məhsulları üzrə ehtiyatların formalaşdırılması, fövqəladə halların baş verməməsi üçün qabaqlayıcı tədbirlərin görülməsi, fəlakətlərin nəticələrinin aradan qaldırılması başlıca vəzifələrdəndir.

Taxıl Fondunun genişləndirilməsini zəruri edən məsələlərdən biri də ölkəmizin hələ də müharibə vəziyyətində olmasıdır. Dünyada gedən siyasi hadisələr də onu deməyə əsas verir ki, ölkənin əsas ərzaq məhsulu hesab edilən taxılla təminatı maksimum halda ehtiyat tədarük etməklə həll edilməlidir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, Dövlət Taxıl Fonduna ən azı 1 illik istehlak həcmi qədər məhsul tədarük edilməlidir. Dünya bazarlarında baş verən maliyyə böhranı və ya az qala müxtəlif ölkələrin defoultuna qədər gətirib çixara bilən hadisələr risklərin öncədən sığortalanmasını şərtləndirir.

Sosial siyasətin əsasını təşkil edən əhalinin ərzaq məhsulları ilə təminatı məsələsinin real həlli ərzaq ehtiyatlarının düzgün idarə olunmasından keçir. Ərzaq ehtiyatları "Ərzaq balansı"nın mühüm tərkib hissəsi olmaqla istehlakda önəmli yer tutur. Ərzaq ehtiyatları dedikdə istehlakdan sonra qalan ərzağın miqdarı nəzərdə tutulsa da bu mahiyyət etibarı ilə daha geniş anlayışdır. "İstehlakdan artıq qalan" ərzaq miqdarının kimin əlində olması onun nə dərəcədə real olmasını əks etdirir. Əgər bu ehtiyat ayrı – ayrı kiçik sahibkarların əlindəysə onda növbəti ildə real olaraq ərzaq ehtiyatı kimi göstərilməsi heç də reallığı əks etdirmir. Bu məhsulun keyfiyyətini itirmədən növbəti ilə saxlanılması üçün müvafiq saxlama şəraitinin olmasından çox asılıdır.

Bunun üçün tədqiqat mövzusu olaraq seçilmiş "Dövlətin ərzaq ehtiyatlarının formalaşdırılmasının əsas problemləri və onların həlli istiqamətləri" bu ehtiyatların əsasən dövlətin əlində cəmləşdirməklə bir çox iqtisadi tənzimləmə məsələlərinin də həyata keçirilməsinə imkan verəcəkdir.

"Əhalinin etibarlı ərzaq təminatında yerli istehsalın rolunun artırılmasının regional problemləri**"** mövzusunda aparılan tədqiqat zamanı bir çox nəticələrə gəldik. Belə ki, illər üzrə iqtisadi göstəriciləri təhlil edərək dinamik artım müşahidə edilmişdir. Xalq təsərrüfatının bütün sahələrində olduğu kimi kənd təsərrüfatında da dayanıqlı inkişaf əldə olunmuş, ölkə tələbatının daxili mənbələr hesabına ödənilməsi ildən - ilə artmaqdadır.

Ərzaq ehtiyatlarının yaradılması və bunun üçün lazım olan infrastrukturun təşkili məsələlərinin nəzəri hissəsi tərəfimizdən öyrənilmişdir. Xüsusilə soyuducu və digər saxlama anbarlarının respublika üzrə yerləşmə xəritəsi öyrənilərək bu sfera üçün əlavə

təkliflər verilmişdir. Həllini tapmaq istədiyimiz problemin ən önəmli məsələsi infrastruktur olmaqla istehsal proqnozunu da özündən asılı vəziyyətə salır.

Aqrar sektorda ərzaq ehtiyatlarının müasir vəziyyəti öyrənilməklə inkişaf problemlərini daha da aydın görmək mümkündür. Bu məqsədlə aparılan tədqiqatlarla tanış olur, statistik məlumatların köməyilə mövcud vəziyyəti araşdırılır və gələcəyə yönəlik proqramların əsası qoyulur.

Dövlət ərzaq ehtiyatlarının tədarükü üçün illik büdcə proqnozlarında müvafiq vəsait həcmi nəzərdə tutulur. Dövlət ərzaq ehtiyatları müvafiq icra hakimiyyəti orqanının sərəncamında olur. Dövlət ərzaq ehtiyatlarının həcmi, nomenklaturası, formalaşması, saxlanması, istifadəsi və vaxtaşırı yeniləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Hazırda respublikamızda dövlət ərzaq ehtiyatlarından bəhs etdikdə yalnız Dövlət Taxıl Fondu haqqında danışmaq mümkündür. Əslində isə ərzaq səbətinin əsasını təşkil edən bir çox məhsulların ehtiyatı yaradılmalı və bunun vasitəsilə ərzaq bazarı süni qiymət artımından qoruna bilər. Qardaş Türkiyə Respublikasının bu sahədə təcrübəsindən istifadə etmək fikrimizcə məqsədəuyğun olardı. Belə ki, hər il qonşu dövlətdə mart ayının sonuna əsas ərzaq məhsullarının dövlət tərəfindən minimum alış qiyməti elan olunur və bu aqrar istehsalçıların bazar probleminin bir qismini ödəməklə yanaşı dövlət ərzaq ehtiyatlarının yaradılmasının ən optimal yoludur. Bu zaman dövlət aqrar istehsalçılara ixrac təşviqləri ilə yanaşı daxili bazarda sərbəst qiymətə məhsul satışını da təşkil edir.

Fikrimizcə, respublikamızda dövlət ərzaq ehtiyatlarının formalaşdırılması üçün bu üsuldan istifadə etməklə ilk növbədə yaradılacaq ərzaq ehtiyatlarını saxlamaq üçün infrastrukturun yaradılmasına başlanılmalıdır.

Respublikamızda bu problemin həllinə xüsusi diqqət yetirilir. Belə ki, əsas ərzaq məhsulu sayılan taxılın istehsalına verilən diqqəti "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununda görmək mümkündür. Qanun Azərbaycan Respublikasında taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsinin hüquqi əsaslarını müəyyən edir. Burada taxılçılığın inkişafına dövlət dəstəyi, bu sahəyə dövlətin himayəsi geniş ifadə olunmuşdur. Taxıl istehsalına dövlət himayəsinin istiqamətləri və formaları, habelə taxıl istehsalının stimullaşdırılmasının və həvəsləndirilməsinin tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla müəyyən olunur. ("Taxıl haqqında" Azərbaycan Respublikası Qanunu, maddə 6.6 və 6.7). Bu sahədə sahibkarların maliyyə imkanlarından uzaqda olan və bu üzdən maraq dairəsindən kənarda olan elmi tədqiqat işlərinin , eləcə də sahənin inkişafı üçün innovativ texnologiyaların tətbiqi dövlətin öhdəliyinə qoyulur. Taxılçılığın və toxumçuluğun elmi təminatı, məqsədi taxıl proqramlarının hazırlanması və dövlət taxıl fondunun yaradılması dövlət büdcəsindən və büdcədənkənar vəsaitlər hesabına maliyyələşdirilir.

Dövlət əsas ərzaq məhsuluna olan tələbatın həm də bir sosial məsələ olduğunu nəzərə alaraq Dövlət Taxıl Fondu yaratmış və bu qanunla fondun hüquqi əsaslarını yaratmışdır. Fövqəladə hallarda istehlakçıların taxıl məhsullarına tələbatını ödəmək, dövlət taxıl ehtiyatlarını formalaşdırmaq, beynəlxalq öhdəlikləri yerinə yetirmək və

daxili taxıl bazarında kəskin qiymət dəyişmələrinin qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasında dövlət taxıl fondu yaradılmışdır. Bu Fond Fövqəladə Hallar Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Material Ehtiyatları Agentliyi tərəfindən idarə olunur.

Ölkəmizin hələ də müharibə şəraitində olduğunu nəzərə alsaq bu ərzaq ehtiyatının nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiqləmiş oluruq. Bu qanun vasitəsilə "Dövlət taxıl fonduna taxıl məhsulları tədarükünü təşkil etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı dövlət sifarişçilərini və onların səlahiyyətlərini müəyyən edir, tədarük üçün müvafiq maliyyə vəsaitləri ayırır.

Dövlət sifarişçiləri hər il dövlət taxıl fonduna təminatlı minimum qiymətlərlə taxıl məhsulları tədarükü barədə kütləvi informasiya vasitələrində elan dərc etdirirlər və istehsalçılarla (malgöndərənlərlə) əvvəlcədən müqavilə bağlayırlar. Tədarük zamanı taxıl birjasında faktiki qiymətlər yüksək olduqda dövlət taxıl fonduna tədarük edilən taxıl məhsullarının qiymətinin təminatlı minimum həddinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müvafiq əlavələr edilir.

Taxıl girovu sistemindən kənar müqavilə əsasında yerli istehsalçılardan dövlət taxıl fonduna tədarük edilən taxılın dəyərinin 30%-dən az olmayan hissəsi avans qaydasında əvvəlcədən ödənilir.

Dövlət sifarişçiləri dövlət taxıl fondunun nəzərdə tutulan həcminin və çeşidinin formalaşmasına məsuliyyət daşıyırlar və hər ilin yanvar ayında fondun formalaşması və istifadəsi, habelə maliyyə, kredit və maddi ehtiyatlarının təminatı barədə müvafiq icra hakimiyyəti orqanına hesabat təqdim edirlər və hesabatı kütləvi informasiya vasitələrində dərc etdirirlər. ("Taxıl haqqında" Azərbaycan Respublikası Qanunu , maddə 9.1; 9.2; 9.3 və 9.4).

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi Dövlət Taxıl Fondu üçün Fövqəladə Hallar Nazirliyinin "Səngəçal" və "Gəncə" Taxıl elevatorları, həmçinin, "Abşeron Taxıl" MMC, "Karat-Holdinq" MMC, "Karmen" MMC, "FATOĞLU" MMC, N.Quliyev adına "Bakı-Taxıl" ASC, "Araz ASC" və "Aveta" MMC müəssisələri vasitəsilə hər ilin iyul ayının əvvəlindən yerli buğda istehsalçılarından qiyməti bir ton üçün təxminən 240 AZN (bu son qiymət deyildir, dünya bazar qiymətinə uyğun olaraq dəyişə bilir) olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş Dövlət Taxıl Fonduna tədarük olunan taxıl üçün qəbul edilmiş aşağıdakı keyfiyyət göstəricilərinə cavab verən buğda qəbuluna başlayır:

I. Dənin naturası (bir litirlik purkalarda qramla): buğda üçün -750 q/l-dən az olmamaqla;
II. Alaq otları (zibil) qarışığı (faizlə): buğda üçün -2%-dən çox olmamaqla;
III. Dən qarışığı (faizlə): buğda üçün – 5%-dən çox olmamaqla;
IV. Nəmlik (faizlə): -13,0%-dən çox olmamaqla;
V. Yapışqanlıq 3-cü sinif buğda üçün: - 23%-dən az olmamaqla yapışqanlığın keyfiyyəti -2-ci qrupdan aşağı olmamaqla;
VI. Şüşəvarilik -3-cü sinif buğda üçün -40-45% hüdudlarında;

VII. İyi və dad-bütün bitkilər üfunət, səməni, - yol verilmir acıyovşan və ya dənli bitkilərə xas olmayan və onların emalı məhsullarına keçən (kerosin, benzin, sarımsaq və buna oxşar maddələr) digər iy və dad;

VIII. Sürmə ilə sirayətlənmiş dənlər -yol verilmir;

IX. Anbar ziyanvericiləri - yol verilmir ilə sirayətlənmə bütün bitkilər üçün;

X. Digər əlamətlər-bütün bitkilər üçün -yol verilmir.

Karantin və iqtisadi cəhətdən təhlükəli xəstəlik, zərərverici və alaq otlarının toxumları olan dən (heyvanların yoluxucu və ya tarlada qışlayan xəstəliklərlə sirayətlənmiş, tərkibi toksiki elementlər, radionukleidlər, pestisidlərlə çirklənmiş dənlər, həmçinin, ekoloji baxımdan əlverişsiz təsərrüfatlarda becərilmiş məhsul)

Bu keyfiyyət göstəricilərinin tələblərinə cavab verməyən və məhsulun keyfiyyət göstəriciləri barədə akkreditə olunmuş laboratoriyadan sertifikatı olmayan buğda məhsulu qəbul edilmir.

Fondun taxıl anbarlarında saxlanılan məhsulun yenilənməsi də mühüm məsələlərdəndir. Tədarük olunan məhsul nə qədər yüksək keyfiyyətli olsa da hər il müəyyən hissəsi satılaraq yenidən tədarük edilməklə daim yenilənməlidir. Fövqəladə hallarda, bazarda kəskin qiymət artımı zamanı məhsul bazara təklif edilir və istər iqtisadi istərsə də sosial problemlərin yaranması baş vermir.

Yuxarıda da qeyd etdiyimiz kimi hal - hazırda ölkəmiz hələ də müharibə şəraitindədir. Bu şərait fövqaladə halların baş vermə riskini çoxaldır. Belə bir şəraitdə yaln;z taxıl ehtiyatının deyil habelə istər ordunun saxlanması üçün, istərsə də əhalinin istehlakı məqsədilə digər ərzaq məhsullarının da dövlət ehtiyatları yaradılmalıdır. Keçmiş İttifaq dövründə bu ərzaq ehtiyatlarının yaradılması üçün infrastruktur mövcud olsa da indi həmin tikinti və qurğular tamamilə dağılmış vəziyyətdədir. Lakin taxıldan başqa digər əsas ərzaq məhsullarının dövlət tərəfindən tədarükünü həyata keçirməyin vaxtı artıq çoxdan gəlmişdir. İstər fövqəladə hallar zamanı, istərsə də bazarda qiymət dalğalanmaları zamanı bu ehtiyatlardan səmərəli şəkildə istifadə etmək mümkündür. Bu dövlətin iqtisadi tənzimləmələrinə gözəl vasitə ola bilər. Ərzaq bazarına təsir dövlətin bir sıra mexanizmləri vasitəsilə reallaşır. İlk növbədə, təklifin həcmi, onun alıcılıq qabiliyyətinə uyğunluğu, istehlak bazarında seqmentləşməni təhlil etmək, seqmentləşməyə uyğun əmtəə və xidmət təklifinin strukturunu təkmilləşdirmək istiqamətləri proqnozlaşdırılır. İdxal və istehsal yolu ilə hər hansı məhsulun tələbatın ödənilmə dərəcəsinə yaxınlaşması müəyyənləşir. Dövlət mexanizmləri ərzaq bazarına istehsal mühiti, yaxud gəlirlər və alıcılıq qabiliyyəti vasitəsilə təsir edir. Belə ki, bazarda daha çox vacib olan məhsulların aztəminatlı ailələr üçün istehlak fazasını genişləndirmək məqsədilə qiymətlərin artımına təsir edən xərclərin üzərində nəzarət və həmçinin, strateji məhsulların ərzaq istehsalında qiymətlərinin dəyişməsində və inhisarçı qiymətlərin qarşısının alınmasında antiinhisar tədbirləri mühüm rol oynayır.

Respublikamızda əsas ərzaq məhsullarının istehsalını təhlil etməklə yaradılacaq ərzaq ehtiyatlarının potensialını müəyyənləşdirmək mümkün olacaqdır. Qəbul olunmuş istehlak normalarına görə ölkə əhalisinin cəmi istehlak səviyyəsini hesablamaq mümkündür. İstehsal olunmuş əsas ərzaq məhsullarına diqqət yetirək:

*Cədvəl 1*

**Azərbaycan Respublikasında ərzaq məhsulları istehsalı**

| Göstəricilərin adı | ölçü vahidi | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2013/ 2000% |
|---|---|---|---|---|---|---|---|---|
| Taxıl Əkin sahəsi | min ha | 648,2 | 802,3 | 968,0 | 967,3 | 1031.4 | 1074 | 165,7 |
| İstehsal | min ton | 1540,2 | 2126,7 | 2000,5 | 2458,4 | 2802.2 | 2955,3 | 191,9 |
| məhsuldarlıq | sentner | 23,8 | 26,5 | 20,7 | 25,4 | 27.2 | 27,5 | 115,5 |
| Buğda | min ton | 495.4 | 591.5 | 657.7 | 654.2 | 687.9 | 689,5 | 139,2 |
| İstehsal | "--" | 1174.7 | 1565.8 | 1308.9 | 1641.0 | 1847.5 | 1893,4 | 161,2 |
| məhsuldarlıq | "--" | 23.7 | 26.5 | 19.9 | 25.1 | 26.9 | 27,5 | 116,0 |
| Kartof əkin sahəsi | min ha | 52.5 | 70.7 | 65.8 | 65.2 | 66.0 | 65,3 | 124,4 |
| İstehsal | min ton | 469 | 1083.1 | 953.7 | 938.5 | 968.5 | 992,8 | 211,7 |
| məhsuldarliq | Sen/ha | 84 | 149 | 145 | 144 | 147 | 152 | 180,9 |
| Tərəvəz əkin sahəsi | min ha | 56,8 | 78,8 | 81,1 | 81,1 | 78.3 | 77,6 | 136,6 |
| İstehsal | min ton | 780 | 1127,3 | 1189,5 | 1214,8 | 1216.2 | 1236,3 | 158,5 |
| məhsuldarlıq | sentner | 133 | 140,0 | 142 | 146 | 150 | 154 | 115,8 |
| Bostan əkin sahəsi | min ha | 26,8 | 30,1 | 31,9 | 33,2 | 30.0 | 28,5 | 106,3 |
| İstehsal | min ton | 261,0 | 363,8 | 433.6 | 478,0 | 428.0 | 429,8 | 164,7 |
| məhsuldarlıq | sentner | 98 | 121,0 | 137 | 144 | 143 | 151 | 154 |
| meyvə əkin sahəsi | min ha | 76,7 | 84,3 | 102,5 | 106,0 | 108.8 | 113,9 | 148,5 |
| İstehsal | min ton | 477 | 625,7 | 729,5 | 765,8 | 810 | 853,8 | 179,0 |
| məhsuldarlıq | sentner | 61,9 | 73,9 | 70,6 | 71,7 | 73.8 | 74,3 | 120,0 |
| Üzüm əkin sahəsi | min ha | 13,9 | 7,2 | 11,2 | 12,0 | 12.4 | 13,1 | 94,2 |
| İstehsal | min ton | 76,9 | 79,7 | 129,5 | 137,0 | 151.0 | 154,1 | 200,4 |
| məhsuldarlıq | sentner | 35,8 | 61,8 | 74,7 | 81,5 | 88.6 | 91,5 | 255,6 |
| Şəkər çuğunduru əkin sahəsi | min ha | 2,5 | 3,0 | 8,5 | 7,3 | 3.6 | 5,5 | 220 |
| İstehsal | min ton | 46,7 | 36,6 | 251,9 | 252,9 | 173.8 | 187,9 | 402,3 |
| məhsuldarlıq | sentner | 210,4 | 131,6 | 304 | 346 | 332.0 | 331 | 157,3 |
| Bitki yağı | Min ton | 10.9 | 64.1 | 44.6 | 44.5 | 67.4 | 63,2 | 579,8 |
| Çay əkin sahəsi | min ha | 5,4 | 2,9 | 0,6 | 0,8 | 0.9 | 0,9 | 16,7 |
| İstehsal | min ton | 1,1 | 0,7 | 0,54 | 0,53 | 0.57 | 0,57 | 51,8 |
| məhsuldarlıq | sentner | 2,0 | 2,5 | 9,4 | 9,8 | 10.5 | 12,0 | 600 |
| Ət cəmi (kəsilmiş çəki) | min ton | 108,7 | 149,6 | 253,8 | 263,7 | 285.6 | 297,9 | 274,1 |
| Süd cəmi | min ton | 1031,1 | 1251,9 | 1536,2 | 1622,3 | 1719.6 | 1820,5 | 176,6 |
| Yumurta | mln əd. | 542 | 874,6 | 1178,6 | 1011,0 | 1226.7 | 1401,5 | 258,6 |

Ərzaq təhlükəsizliyinin təmin olunmasının tərkib hissəsi olaraq ərzaq ehtiyatlarının yaradılmasını nəzərdən qaçırmaq olmaz. Burada yaradılan ərzaq ehtiyatlarının mənbəyi də önəmli əhəmiyyət daşımaqdadır. Ölkənin güclü maliyyə resurslarına arxalanaraq bu ehtiyatların istənilən şəkildə yaradılması təhlükəli meyllərdən xəbər verir. Proqramın qəbul olunduğu ilkin illərdə bu hal məqbul sayılırdısa zaman keçdikcə ehtiyatların tərkibində yerli istehsalın rolunun artırılması iqtisadi məsələ olmaqla yanaşı artıq siyasi çalxalanmalarla dolu son illərdə həm də daha da əhəmiyyətli olmuşdur. Baş verən siyasi hadisələr, Mərkəzi Asiyada gedən müharibələr bir daha onu deməyə əsas verir ki, istənilən maliyyə resursu olması heç də həmişə ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması demək deyildir. Təbii sərvətlərlə zəngin bir ölkə olan Rusiyanın tətbiq edilən siyasi və iqtisadi embarqolardan bu gün nə qədər əziyyət çəkdiyini görməmək mümkün deyildir. Güclü maliyyə resurslarının olmasına baxmayaraq Rusiya AB ölkələrindən və Amerikadan ərzaq idxal edə bilmir. Bunun nəticəsində isə güclü ərzaq qıtlığı ilə qarşı qarşıyadır. Zamanında düzgün qurulan iqtisadi siyasətlə bunu aradan qaldırmaq olardı. Xüsusən ərzaq istehsalında xarici ölkələrdən asılılığı aradan qaldırmaq, yerli istehsal hesabına əhalini ərzağa olan tələbatının maksimum ödənilməsi imkanları yaradılması lazım idi. Müvafiq kənd təsərrüfatı və ərzaq məhsullarının idxal və ixracına dair məlumatların mənbəyi gömrük statistikasının məlumatlarından əldə edilir.

İllik istehlak həcmini müəyyənləşdirərək istehsal gücü ilə idxal arasındakı nisbəti və rəqabəti müəyyənləşdirmək mümkündür. Əhalinin ərzaq məhsulları ilə təmin olunma səviyyəsi beynəlxalq bir standartda müəyyənləşdirmək qeyri mümkündür. Burada toplumun yerləşdiyi coğrafi mövqeden tutmuş, milli mentalitetinə qədər bütün amillər nəzərə alınmalıdır. İnkişaf etmiş bir AB ölkəsi ilə inkişaf etməkdə olan və ya az inkişaf etmiş bir Asiya ölkəsinin meyarları kəskin fərqlənir.

Dövlət ərzaq ehtiyatlarının formalaşdırılmasında yerli istehsalın üstünlük təşkil etməsi çox önəmlidir. İnkişaf etməkdə olan ölkələrə xas olan inkişaf tempi bizim ölkədə daha da sürətlə artmaqdadır. Neft kapitalının qeyri-neft sektorunun, xüsusilə aqrar sektorun inkişafına yönəldilməsi sosial sabitliyin və dinamik inkişafın əsasını qoymuşdur. İldən ilə ümumi istehlakın tərkibində yerli istehsalın xüsusi çəkisinin artması danılmaz faktdır.

Əhalinin əsas ərzaq məhsulları ilə təminatı əsas məsələlərdən biri hesab olunsa da bu zaman ərzaq ehtiyatlarının təşkil olunması ilə təchizatın risklərədən sığortalanması da həyata keçirilməlidir. Hal hazırda respublikamızda əsas ərzaq ehtiyatlarından yalnız taxılın dövlət ehtiyatı yaradılmışdır. Digər ərzaq ehtiyatlarının dövlət ehtiyqatlarının yaradılması da vacıbdir. Ərzaq bazarının hansı aspektdə tənzimlənməsinə baxmayaraq, bu zaman dövlətin başlıca məqsədi ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə nail olmaqdan, bütövlükdə isə ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail olmaqdan ibarətdir. Ərzaq bazarının düzgün təşkili bu ehtiyatların yaradılmasının vacib şərtlərindəndir.

Kənd təsərrüfatı istehsalının mövsümiliyini nəzərə alaraq əhalinin ərzaq məhsullarına olan tələbatını fasiləsiz ödənilməsi üçün yeyinti məhsullarının gigiyenik

şəraitdə saxlanmasının təşkili vacib məsələlərdən biridir. Bu zaman yüksək texnologiyalardan istifadə etməklə məhsulun tərkibinin dəyişilməsinin qarşısı alınmaqla istehlakını təmin etmək lazımdır. Yeyinti məhsullarının qablaşdırılması, etiketləşdirilməsi, onların keyfiyyətinin və qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanmasını və istifadəsini təmin etməlidir. Yeyinti məhsullarının saxlanması və daşınması müvafiq normativ sənədlərə uyğun olaraq standartlar və tələblərə əməl edilməklə həyata keçirilir. Əhalinin yeyinti məhsullarına olan tələbatının və ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasında yeyinti məhsullarının istehsalı sahəsində məqsədli investisiya, qiymət, kredit siyasəti həyata keçirilir. Dövlət ərzaq ehtiyatlarının formalaşmasında, müdafiə, təhlükəsizlik, hüquq-mühafizə, digər dövlət orqanlarının və bələdiyyələrin qapalı təşkilatlarının yeyinti məhsulları ilə təchizatında yerli istehsalçılara üstünlük verilir.

Dövlət ərzaq ehtiyatlarının çeşidinin artırılması demək-daha çox saxlama kameraları və anbarları deməkdir. Çeşidin artırılması probleminin həllindən öncə müvafiq saxlama kameralarının, soyuducuların və anbarların tikilib istifadəyə verilməsi lazımdır. Yuxarıda da qeyd etdiyimiz kimi, Dövlət Taxıl Fondunun hazırkı həcmindən (500 min ton) əlavə bir milyon ton həcmində taxıl anbarlarının tikilməsi lazımdır. Son illər İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən xeyli sayda taxıl anbarları tikilib istifadəyə verilmişdir. Aparılan müşahidələr göstərmişdir ki, bu anbarların əksəriyyəti hal - hazırda boşdur. Buna səbəb isə taxıl anbarlarını tikən sahibkarların bu anbarları dolduracaq taxıl məhsulunu tədarük etmək üçün vəsaitin olmamasıdır. Dövlət ehtiyatlarının həmin anbarlarda tədarük edilməsi həm sahibkarlar üçün həm də dövlət üçün səmərəli olacaqdır. Son illər tikilmiş taxıl anbarları haqqında aşağıdakı cədvəldən məlumatlar əldə edə bilərik.

*Cədvəl 2*

**Taxıl anbarları kompleksləri**

| № | Komplekslərin adı, ünvanı | Lahiyənin məqsədi | Həcmi və ya gücü | Lahiyə üzrə iş yerlərinin sayı | Lahiyənin icra vəziyyəti |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Beyləqan rayon, Şahsevən kəndi | Taxıl anbarı kompleksi | 20 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 2 | Bakı şəhər, Binəqədi rayon, Sulutəpə qəs. | Taxıl anbarı kompleksi | 10 min tonluq | 20 İş yeri | İstifadəyə verilib |
| 3 | Bərdə şəhəri | Taxıl anbarı kompleksi | 10 min tonluq | 20 İş yeri | İstifadəyə verilib |
| 4 | Ağcəbədi rayon, Agabəyli kəndi | Taxıl anbarı kompleksi | 5 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 5 | Gəncə şəhər, Ə.Əliyev 3 | Taxıl anbarı kompleksi | 3 min tonluq | 10 İş yeri | İstifadəyə verilib |
| 6 | Gəncə şəhər A.Səhət 43 | Taxıl anbarı kompleksi | 10 min tonluq | 24 İş yeri | İstifadəyə verilib |
| 7 | Cəlilabad rayon, Qarazəncir kəndi | Taxıl anbarı kompleksi | 10 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 8 | Şəki rayon, Göybulaq kəndi | Taxıl anbarı kompleksi | 14 min tonluq | 32 İş yeri | İstifadəyə verilib |
| | | | | | |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 9 | Oğuz şəhəri | Taxıl anbarı kompleksi və qlükoza isteh. Zavodu | 1 min t. taxil, 17,2 min t. qlükoza | 53 İş yeri | İstifadəyə verilib |
| 10 | Tovuz rayon, İbrahimhacı küçəsi | Taxıl anbarı kompleksi | 30 min tonluq | 34 İş yeri | İstifadəyə verilib |
| 11 | Bərdə şəhər, Nizami küçəsi 125 | Taxıl anbarı kompleksi | 10 min tonluq | 19 İş yeri | İstifadəyə verilib |
| 12 | Cəlilabad şəhəri | Taxıl anbarı kompleksi | 10 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 13 | Qobustan şəhəri | Taxıl anbarı kompleksi | 10 min tonluq | 15 İş yeri | İstifadəyə verilib |
| 14 | İsmayıllı rayon, Xəlil kəndi | Taxıl anbarı kompleksi | 18 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 15 | İmişli rayon, Bəhrəmtəpə qəsəbəsi | Taxıl anbarı kompleksi | 50 min tonluq | 40 İş yeri | İstifadəyə verilib |
| 16 | İmişli şəhər, S.Fətəliyev 45 | Taxıl anbarı kompleksi | 49,8 min tonluq | 48 İş yeri | İstifadəyə verilib |
| 17 | Salyan rayon, Qaraçala kəndi | Taxıl anbarı kompleksi | 10 min tonluq | 14 İş yeri | İstifadəyə verilib |
| 18 | Şəki rayon, Sarıca kəndi | Taxıl anbarı kompleksi və taxıl istehsalı | 1 min t. anbar, illik 4 min t. Taxıl istehsalı (1600 ha) | 20 İş yeri | İstifadəyə verilib |
| 19 | İmişli rayon Kürdəmir Biləsuvar şosesi | Taxıl anbarı kompleksi | 15 min tonluq | 24 İş yeri | Tikinti işləri aparılır |
| 20 | Oğuz şəhəri | Taxıl anbarı kompleksi | 30 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 21 | Siyəzən rayon, Zarat kəndi | Taxıl anbarı kompleksi | 5 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 22 | Beyləqan rayon Şəfəq qəsəbəsi | Taxıl anbarı kompleksi | 20 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| | Anbarlarının tutumu, iş yerləri cəmi | | 341,8 min ton | 565 İş yeri | |

**Mənbə**: Sahibkarlara Kömək Milli Fondun rəsmi saytı(http://anfes.gov.az/).

Beləliklə taxıl məhsulunda dövlət ehtiyatlarının həcmini artırmaq üçün ən az 300 min tonluq anbar təsərrüfatı hazır vardır. Lakin cədvəldən də göründüyü kimi "Abşeron Taxıl" MMC və "Karat" MMC –nin məlumatları buraya daxil edilməmişdir. Lakin bu müəssisələrin hər birində 100 min tonluq taxıl anbarının mövcudluğunu və hər iki müəssisənin Dövlət Taxıl Fondunun tədarükçüsü olduğunu nəzərə alsaq buraya 100 min ton həcmində taxıl anbarı əlavə edilmiş olacaqdır. Bu da yaxın müddətdə külli miqdarda vəsait qoyuluşundan dövləti azad etmiş olur. Dövlət ehtiyatlarının çeşidinin artırılması yalnız müvafiq saxlanma yerlərinin təşkilindən sonra mümkün olacaqdır. Amma qisa müddətdə bunu həyata keçirmək üçün bir yol vardır.

Aparılan tədqiqartlar onu göstərir ki, burada da Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına inşa edilmiş saxlama və soyuducu kameraların əksəriyyəti

hal hazırda boşdur. Mövcud potensialdan səmərəli istifadə etmək lazımdır. Xarab olma vəziyyətinə görə ərzaq məhsulları qruplaşdırılaraq soyuducu və saxlama kameralarında dövlət ərzaq ehtiyatları formalaşdırmaq mümkündür. Nəzərə alsaq ki, bu anbarlar və ya logistika mərkəzləri ayrı-ayrı sahibkarlara məxsusdur, bu zaman dövlətlə onlar arasında iqtisadi münasibətlər bərabərhüquqlu müqavilələr əsasında formalaşmalıdır. Dövlət həmin anbardan istifadəyə görə sahibkara icarə haqqı ödəyir.

*Cədvəl 3*

**Logistika Mərkəzləri**

| № | Komplekslərin adı, ünvanı | Lahiyənin məqsədi | Həcmi və ya gücü | Lahiyə üzrə iş yerlərinin sayı | Lahiyənin icra vəziyyəti |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1 | Salyan rayon, Çuxanlı kəndi | Logistika mərkəzi | 10,5 min tonluq | 65 İş yeri | İstifadəyə verilib |
| 2 | Şəmkir rayon, Sarıtəpə qəsəbəsi | Logistika mərkəzi | 1 min tonluq | 24 İş yeri | İstifadəyə verilib |
| 3 | Quba rayon, 2-ci Nüqədi qəsəbəsi | Logistika mərkəzi | 5 min tonluq | 44 İş yeri | İstifadəyə verilib |
| 4 | Salyan rayon, Yenikənd kəndi | Logistika mərkəzi | 5 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 5 | Xaçmaz rayon, Köhnə Xudat kəndi | Logistika mərkəzi | 2 min tonluq | 26 İş yeri | İstifadəyə verilib |
| 6 | Xaçmaz rayon , Yergüc kəndi | Logistika mərkəzi | 2 min tonluq | 24 İş yeri | İstifadəyə verilib |
| 7 | Hacıqabul rayon,Bakı-Hacıqabul yolu 106 km | Logistika mərkəzi | 2 min tonluq | 25 İş yeri | İstifadəyə verilib |
| 8 | Tovuz rayon, Qovlar qəsəbəsi | Logistika mərkəzi | 2 min tonluq | 26 İş yeri | İstifadəyə verilib |
| 9 | Masallı şəhəri | Logistika mərkəzi | 1,2 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 10 | Daşkəsən rayon, Quşçu qəsəbəsi | Logistika mərkəzi | 1 min tonluq | 20 İş yeri | İstifadəyə verilib |
| 11 | Göyçay şəhəri | Logistika mərkəzi | 2 min tonluq | 24 İş yeri | İstifadəyə verilib |
| 12 | Quba rayon, Aşağı Xuc kəndi | Logistika mərkəzi | 2 min tonluq | 26 İş yeri | İstifadəyə verilib |
| 13 | Saatlı rayon, Gömüşçü kəndi | Logistika mərkəzi | 2 min tonluq | 22 İş yeri | İstifadəyə verilib |
| 14 | Cəlilabad rayon, Ocaqlı kəndi | Logistika mərkəzi | 2 min tonluq | 25 İş yeri | İstifadəyə verilib |
| 15 | Göyçay rayon, Sənaye zonası | Logistika mərkəzi | 1 min tonluq | 20 İş yeri | İstifadəyə verilib |
| 16 | Xaçmaz rayon, Hülövlü kəndi | Logistika mərkəzi | 2 min tonluq | 32 İş yeri | İstifadəyə verilib |
| 17 | Quba rayon, Vəlvələ kəndi | Logistika mərkəzi | 4 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 18 | Qusar rayon, Çubuqlu kəndi | Logistika mərkəzi | 2 min ton 2-ci lahiyə | 24 İş yeri | İstifadəyə verilib |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 19 | Tovuz rayon, Düzqırıqlı kəndi | Logistika mərkəzi | 1,5 min tonluq | 17 İş yeri | Tikinti işləri aparılır |
| 20 | Cəlilabad rayon, Bakı-astara 221-ci km | Logistika mərkəzi | 2 min tonluq | 24 İş yeri | İstifadəyə verilib |
| 21 | Xaçmaz rayon, Ağaşirinoba kəndi | Logistika mərkəzi | 4 min tonluq | 36 İş yeri | İstifadəyə verilib |
| 22 | Sumqayıt şəhər, Sənaye zonası | Logistika mərkəzi | 5 min tonluq | 55 İş yeri | İstifadəyə verilib |
| 23 | Abşeron rayon, Xirdalan şəhəri sənaye zonası | Logistika mərkəzi | 7 min tonluq | 34 İş yeri | İstifadəyə verilib |
| 24 | Beyləqan rayon, Şəfəq qəsəbəsi | Logistika mərkəzi | 6,5 min tonluq | 36 İş yeri | İstifadəyə verilib |
| 25 | Gədəbəy rayon, Arıxdam kəndi | Logistika mərkəzi | 10 min tonluq | 56 İş yeri | İstifadəyə verilib |
| 26 | Fizuli rayon, Əhmədbəyli kəndi | Logistika mərkəzi | 5 min tonluq | 23 İş yeri | İstifadəyə verilib |
| 27 | Quba rayon, Vladimirovka kəndi | Logistika mərkəzi | 2,1 min tonluq | 18 İş yeri | İstifadəyə verilib |
| 28 | Ağcəbədi rayon, Rəncbərlər kəndi | Logistika mərkəzi | 5 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 29 | Bərdə rayon, Mehdili kəndi | Logistika mərkəzi | 5 min tonluq | 34 İş yeri | İstifadəyə verilib |
| 30 | Tərtər rayon, Tərtər-Bərdə yolu 2-ci km | Logistika mərkəzi | 3 min tonluq | 30 İş yeri | İstifadəyə verilib |
| 31 | Şamaxı rayon, Kərkənc kəndi | Logistika mərkəzi | 0,2 min tonluq | 12 İş yeri | İstifadəyə verilib |
| 32 | Astara rayon, Şahağacı kəndi | Logistika mərkəzi | 0,25 min tonluq | 14 İş yeri | İstifadəyə verilib |
| 33 | Şabran rayon, Qəndob kəndi | Logistika mərkəzi | 10 min tonluq | 42 İş yeri | İstifadəyə verilib |
| 34 | Biləsuvar rayon, Bəydili kəndi | Logistika mərkəzi | 5 min tonluq | 32 İş yeri | İstifadəyə verilib |
| 35 | Tovuz rayon, Qovlar qəsəbəsi | Logistika mərkəzi | 0,35 min tonluq | 10 İş yeri | İstifadəyə verilib |
| 36 | Xaçmaz rayon, Yergüc kəndi | Logistika mərkəzi | 1 min tonluq | 14 İş yeri | İstifadəyə verilib |
| 37 | Quba rayon, Vladimirovka kəndi | Logistika mərkəzi | 2,1min ton 2-ci lahiyə | 38 İş yeri | İstifadəyə verilib |
| 38 | Şamaxı rayon, Çarxan bələdiyyəsi | Logistika mərkəzi | 1,2 min tonluq | 15 İş yeri | İstifadəyə verilib |
| 39 | Qusar rayon, Çubuqlu kəndi | Logistika mərkəzi | 3 min tonluq | 43 İş yeri | İstifadəyə verilib |
| 40 | Qaradağ rayon, Lökbatan qəs. | Logistika mərkəzi | 7,5 min tonluq | 100 İş yeri | Tikinti işləri aparılır |
| 41 | Bakı şəhər, Nəsimi rayon, S.G.Pişəvəri küç. | Logistika mərkəzi | 4 min t. Soyuducu, 150 fermer mağazası | 90 İş yeri | Tikinti işləri aparılır |

| 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|
| 42 | Bakı şəhər, Səbail ray. Salyan şosesi 14-cü km 10 | Logistika mərkəzi | 20 min tonluq | 48 İş yeri | Tikinti işləri aparılır |
| 43 | Sumqayıt şəhər, Metal bazaya geden yolun üstü | Logistika mərkəzi | 20 min tonluq | 54 İş yeri | Tikinti işləri aparılır |
| 44 | Samux rayon, Əhmədbəyli kəndi | Logistika mərkəzi | 1 min tonluq | 10 İş yeri | Tikinti işləri aparılır |
| 45 | Qusar rayon, Kuzun kəndi | Logistika mərkəzi | 12 min tonluq | 75 İş yeri | Tikinti işləri aparılır |
| 46 | Abşeron rayon, Xirdalan | Logistika mərkəzi | 26 min tonluq | 54 İş yeri | Tikinti işləri aparılır |
| 47 | İsmayıllı şəhər, H.Əliyev prospekti | Logistika mərkəzi | 1 min t. Soyuducu, 150 fermer mağazası | 31 İş yeri | Tikinti işləri aparılır |
| 48 | Sumqayıt, 46-cı məhəllə, Çerkassi küç. | İxtisaslaşmış yaşıl market | min t. Soyuducu, 150 fermer mağazası | 31 İş yeri | Tikinti işləri aparılır |
| | Logistika mərkəzlərin tutumu, iş yerlərinin cəmi | | 287,9 min ton 450 fermer mağazası | 1611 İş yeri | |

**Mənbə:** Sahibkarlara Kömək Milli Fondun rəsmi saytı(http://anfes.gov.az/).

Cədvəldən göründüyü kimi Respublika üzrə cəmi inşa edilmiş 48 logistika mərkəzində 287,9 min ton ərzaq məhsulunu saxlamaq üçün imkanlar mövcuddur. Bundan əlavə öz vəsaiti hesabına tikilmiş və hal hazırda tam gücü ilə işləyə bilməyən belə müəssisələrin də potensialını nəzərə alsaq mövcud anbarların həcminin təxminən 300 min ton olduğunu görərik ki, bu da ən azından ilkin olaraq ordunun faraş məhsul üçün ərzaq ehtiyatlarının ödənilməsinə kifayət edər.

Müxtəlif ərzaq fondlarının yaradılması zamanı ərzaq təhlükəsizliyinin əsas amili kimi qida təhlükəsizliyi amilini unutmaq olmaz. Fondların təhlükəsiz qidalardan təşkil olunması milli təhlükəsizliyin əsas tərkib hissələrindən biridir.

Bu tədqiqatla bunun daha səmərəli şəkildə həyata keçirilməsi yollarını göstərməyə çalışdıq və aşağıdakı nəticələrə gəldik.

1. "2008-2015 ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair "Dövlət Proqramının əsas tələbinə - ərzaq təhlükəsizliyinin yerinə yetirilməsində yerli istehsalın rolunun artırılmasına çox böyük əsas vardır. Belə ki, respublikamızda mövcud olan istehsal və maddi resurslar bunu deməyə imkan verir.

2. Ərzaq təhlükəsizliyi tədbirləri proqramını həyata keçirilməsi üçün kifayət qədər normativ, hüquqi baza vardır. Bunun üçün bir neçə qanun ("Taxılçılıq haqqında" qanun və digər sahəvi qanunlar) və Proqramlar qəbul edilmiş və uğurla həyata keçirilməyə başlamışdır.

3. Ərzaq təhlükəsizliyinin tərkib hissəsi olaraq ərzaq ehtiyatlarına dövlətin xüsusi diqqət və qayğısı vardır. Sadəcə dövlət ərzaq ehtiyatlarının çeşidinin artırılmasına ehtiyac vardır.

4. Respublikamızda mövcud olan maliyyə potensialı aqrar sahənin daha da inkişaf etdirərək prioritet sahəyə çevrilməsinə imkan verir.

5. Respublikamızda hal hazırda mövcud əhali sayına və məlum fizioloji normalara uyğun olaraq istər istehsal olunan ərzaq məhsullarına, istərsə də idxal hesabına ərzaqla tam təminat vardır. Başqa sözlə əhalinin ərzaqla təminatında iqtisadi sabitlik vardır.

Aparılan tədqiqat nəticəsində əldə olunmuş bu nəticələrə əsaslanaraq ərzaq təhlükəsizliyinin təminatı məqsədilə dövlət ərzaq ehtiyatlarının daha da səmərəli təşkili məqsədilə bir sıra təkliflər vermək istərdik:

1. Dövlət Taxıl Fondunun tədarük həcminin mərhələlərlə yaxın 5 ilə 1500 min tona çatdırılması tərəfimizdən təklif olunur. Bunu infrastrukturun mövcud olmamasını nəzərə alaraq, hal hazırda respublikamızda mövcud olan və əksəriyyəti tədarük üçün vəsaitin olmamasından boş qalan taxıl anbarlarını ayrı-ayrı sahibkarlardan icarə götürməklə təmin etmək olar.

2. Ölkənin müharibə şəraitində olduğunu nəzərə alaraq , xüsusilə ordunun ehtiyacları üçün digər əsas ərzaq məhsullarının dövlət ehtiyatlarını yaratmaq lazımdır. Bitkiçilik məhsullarından - düyü, qarabaşaq, meyvə, bitki yağı, şəkər və heyvandarlıq məhsullarından - dondurulmuş ət, heyvan mənşəli yağlar, pendir ehtiyatlarının yaradılması vacıbdir. Bütün bunlar üçün soyuducu və saxlama kameralarının təşkil olunması və 3 ilə bu infrastrukturun təşkil olunması başa çatdırılmalıdır.

3. Dövlət ehtiyatlarının yaradılması və idarə olunması üçün sərbəst olaraq fəaliyyət göstərəcək bir qurumun yaradılması lazımdır. Bu "Kənd Təsərrüfatı məhsullarının tədarükü və Dövlət ərzaq ehtiyatlarının idarə olunması üzrə " Komitə, Agentlik və ya Xidmət ola bilər. Bu qurum vasitəsilə iki mühüm məsələnin həlli -aqrar sahədə dövlət tədarükü və dövlət ərzaq ehtiyatlarının yaradılması birlikdə həll oluna bilər. Bu zaman FHN tərkibində olan Material Ehtiyatları Agentliyinə tabe olan Dövlət Taxıl Fondunu da yeni yaradılacaq qurumun tabeliyinə vermək lazımdır.

4. Aqrar sahədə intensiv inkişaf əsas götürülsə də ərzaq təhlükəsizliyinin təminatı kimi ekstensiv metoddan da imtina etmək lazım deyil. Çünki, hələ respublikamızda buna potensial imkanlar vardır. Əkin dövriyyəsindən çıxmış xeyli miqdarda (600 min hektaradək) kənd təsərrüfatına yaralı torpaq sahəsini əkin dövriyyəsinə qaytarmaqla mövcud məhsuldarlığı saxlamaqla istehsalı 30% (hal-hazırda cəmi əkin sahəsi 1800 min ha olduğundan 600 min ha onun 30%-ni təşkil edir) artırmaq mümkündür.

5. Dövlət ərzaq ehtiyatlarının həcminin və çeşidinin artırılması məqsədilə respublikamızda mövcud olan taxıl anbarlarının və soyuducu kameraların potensialından istifadə edilməlidir. Burada 300 min ton taxıl və bir o qədər də müxtəlif ərzaq məhsullarının saxlanmasına şərait vardır. Yeni anbarlar tikilənə qədər bu mövcud potensialdan istifadə olunmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**1.** 2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair "Dövlət Proqramı".
**2.** "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanunu.
**3.** "Yeyinti Məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunu.
**4.** Balayev R.Ə. "Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi" Bakı, "Elm" 2007.
**5.** Ərzaq məhsulları üzrə balanslar -2014
**6.** Azərbaycanın Statistik göstəriciləri –2013
**7.** Azərbaycanın xarici ticarəti- 2014
**8.** www.stat.gov.az
**9.** www.anfes.gov.az

## Основные проблемы формирования государственного продовольственного резерва и направления их решений

**Алиев Сахиб Байрам оглы**
**Ахмедов Фамиль Талверди оглы**

**РЕЗЮМЕ**

Исследовано формирование государственных продовольственных фондов, как составной части обеспечения продовольственной безопасности в республике и ее значительная роль в решении проблемы.

Выявлено, что государственные продовольственные фонды созданы только для зерна и есть необходимость в увеличении их ассортимента. Опираясь на практику зарубежных стран, предложено создание государственных резервных фондов для основных пищевых продуктов, особенно для стран, находящихся в условиях войны. Проанализировано возможность использования имеющихся логистических центров, холодильных складов и камер хранения, для первичной организации продовольственных фондов и даны предложения в этом направлении.

В статье также излагаются взгляды на объемы новых формирующихся государственных продовольственных фондов.

**Ключевые слова:** продовольственные запасы, продовольственная безопасность, фонд зерна, продовольственные балансы, зерновые хранилища, логистические центры, продовольственные фонды.

## The main problems of forming the state's food reserve and the direction of their decisions

**Aliyev Sahib Bayram**
**Ahmedov Famil Talverdi**

**SUMMARY**

The formation of the state food banks as part of food security in the country and its significant role in problem solving has been analyzed.

Public food funds are created only for the grain, and there is a need to increase their range has been analyzed. Based on the practice of foreign countries the creation of state reserve funds for basic foodstuffs, especially for the country that is in a war has been suggested. The possibility of using the existing logistics centers, refrigerated warehouses and storage facilities, for the primary organization food banks and present proposal has been analyzed.

The article also presents views on the volume of new form state food banks.

**Key words:** food supplies, food security, grain fund, food balance, grain storage, logistics centers, food banks.